









# AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN FAKÜLTƏLƏRİ

- I Müalicə-profilaktika fakültəsi
- II Müalicə-profilaktika fakültəsi
- Stomatologiya fakültəsi
- Əczaçılıq fakültəsi
- İctimai səhiyyə fakültəsi
- Hərbi tibb fakültəsi

#ATU
#ATUFAKÜLTƏLƏR
#ATUTƏLƏBƏLƏRİ


amu.edu.az
azerbaycan__tibb__universiteti
Azərbaycan Tibb Universiteti
Azerbaijan Medical University

# I MÜALİCƏ-PROFİLAKTİKA FAKÜLTƏSİ

I Müalicə-profilaktika fakültəsi tibbin təməl prinsiplərini mənimsəyərək, sağlam cəmiyyət qurmaq üçün güclü həkimlər yetişdirir. Burada alacağınız təhsil ilə xəstəliklərlə mübarizə və insanlara sağlam həyat tərzi yaşatmaq məqsədini daşıyan peşəkar mütəxəssislər olacaqsınız.

Tibb dünyasının liderləri arasında yerinizi tutun!



**SAĞLAMLIĞIN KEŞİYİNDƏ LİDER OLUN!**







# II MÜALİCƏ-PROFİLAKTİKA FAKÜLTƏSİ

**HƏYATIN HƏR ANINDA SEVGİ VƏ SAĞLAMLIQ ÜÇÜN ÇALIŞIN!**

II Müalicə-profilaktika fakültəsinin əsas vəzifəsi cəmiyyətin həyat keyfiyyətini milli və regional tələblərə uyğun yüksəltmək və elm dünyasına töhfə vermək məqsədilə ən yüksək səviyyədə tibbi təhsil təqdim etməklə hadisələrə tənqidi yanaşma bacarığı olan, xəstəlikləri differensasiya və müalicə edə bilən, profilaktik tibbi və insanların sağlamlığını ön planda düşünən, kommunikasiya qurmağı bacaran, etik prinsipləri mənimsəmiş, mədəni cəhətdən püxtələşmiş, tədqiqatçı və məhsuldar həkimlər yetişdirməkdir.









# STOMATOLOGİYA FAKÜLTƏSİ

**GÜLÜŞLƏRİ TƏKRARLAYIN, ÖZÜNÜZÜ GÜVƏNLİ HİSS EDTİRİN!**

Stomatologiya fakültəsi diş sağlamlığını qorumağa yönəlmiş ən müasir təhsil və təcrübəni qazandırır. Gözəl dişlər yalnız sağlamlıq deyil, həm də insanın özünə güvənini artıran əsas amildir. Tibb sahəsində innovativ yanaşmalarla bu fakültə, sizə diş həkimi kimi cəmiyyətə faydalı olmaq yolunda geniş imkanlar təqdim edir.





# ƏCZAÇILIQ FAKÜLTƏSİ



Əczaçılıq təhsilinin məqsədi yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasıdır. Bu təhsil dərman vasitələrinin təhlükəsizliyinin və effektivliyinin təmin edilməsini, elmi təfəkkürün inkişafını, etik prinsiplərin formalaşmasını və əczaçılıq prosesinin idarə olunmasını əhatə edir. Eyni zamanda, sağlam həyat tərzinin təbliği, beynəlxalq aləmə inteqrasiya və innovasiyaya uyğunlaşma da təhsil proqramının əsas istiqamətləri arasındadır.

**DƏRMAN ELMDİR, ƏCZAÇILIQ İNCƏSƏNƏTDİR**





# İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİ

İctimai səhiyyə fakültəsi əhalinin sağlamlığının qorunması və yaxşılaşdırılması, xəstəliklərin qarşısının alınması, sağlam həyat tərzinin təbliği üçün ictimai səhiyyə, tibb bacısı işi, fizioterapiya və tibbi reabilitasiya ixtisasları üzrə kadrların hazırlanması məqsədilə tibb təhsilinin və elminin inkişafını təmin edir.

**CƏMİYYƏTİN SAĞLAMLIĞINI QORUMAQ SİZƏ HƏVALƏDİR!**







# HƏRBİ TİBB FAKÜLTƏSİ

Hərbi tibb fakültəsi tibb sahəsini hərbi xidmətlə birləşdirərək, yüksək səviyyəli mütəxəssislər yetişdirir. Vətənimizin keşiyində dayanaraq müdafiə və sağlamlıq sahələrinə öz töhfənizi vermək istəyirsinizsə, bu fakültə sizin üçün mükəmməl bir seçimdir. Hərbi tibbin liderləri olmağa hazırlaşın!

FAKÜLTƏLƏR





**VƏTƏNƏ XİDMƏT EDİN, SAĞLAM GƏLƏCƏYİ QORUYUN!**